## İdman xəbərləri

# “Qəbələ”dən daha bir qələbə

Azərbaycan Premyer Liqasında XIX turun ikinci oyun gününə start verilib. Martın 1-də “Qəbələ” Bakıda “Zirə”nin qonağı olub.

Qarşılıqlı hücumlarla başlayan oyunun ilk dəqiqələrindən komandamız daha fəal təsir bağışlayıb. Lakin meydan sahibləri İlkin Muradovun qolu ilə önə keçib.

Matç sona yaxınlaşdıqca rəqib qapısına təzyiqi də artırıb. Uzaqdan çərçivə önünə ötürmə zamanı tirdən qayıdan topa toxunan Fernan Lopez matçda tarazlığı bərpa edib. Bu qoldan ruhlanan “Qəbələ” daha bir dəfə fərqlənməyi də bacarıb. Bu dəfə də uzaqdan zərbə qolla nəticələnib. Röv-




lan Muradov qapını dəqiq nişan alıb.

Beləliklə “Zirə” - “Qəbələ” matçı 1:2 hesabı ilə başa çatıb.

# İdmançımızdan qızıl medal



“Qəbələ” İdman Klubunun karateçisi Rafiz Həsənov Avstriyada keçirilən Karate1 Premyer liqa turnirinin qalibi olub. 67 kq çəki dərəcəsində çıxış edən idmançımız yarışın son günündə final qarşılaşmasına çıxıb. O, ”Sporthalle Alpenstrasse” arenasındakı yarışın həlledici görüşündə italiyalı Luka Mareska ilə üz-üzə gəlib. 3:1 hesablı qələbə qazanan Rafiz Həsənov qızıl medala yiyələnib.

Xatırladaq ki, Dünya Karate Federasiyasının (WKF) ən nüfuzlu liqa yarışının 3-cü mərhələsində 88 ölkədən 625 karateçi iştirak edib.

## Faydalı məsləhət

# Bitki çaylarını hər xəstəliyə uyğun olaraq qəbul etmək lazımdır

Yaşıl çayın tərkibi antioksidantlarla zəngindir və onun qəbulu qara çaydan daha faydalıdır. Lakin onu gün ərzində bir stəkandan artıq içmək və ilboyu hər gün qəbul etmək düzgün deyil, çünki kalsium və mineralları bədəndən yuyub aparmaq qabiliyyətinə malikdir. Yaşıl çayın tərkibində polifenollar var. Xüsusən qadınlar 48 yaşına çatanda onlarda osteoparoz başlayır. Ona görə onların həmin çaydan az istifadə etməsi məsləhətdir.

Xalq təbabətinə görə, yaşıl çaydan da faydalı bitkilər var. Məsələn, cökə, rozmarin. Rozmarin həm də arıqlamaq üçün ideal vasitədir. Bəzən el arasında ona ətotu da deyirlər. Onun yağından kosmetik vasitə kimi də istifadə edirlər.



Çox faydalı olan çobanyastığı çayını da hər gün içmək də zərərlidir, Çünki onun tərkibində olan xamazolen bağırsaqlara büzüşdürücü təsir edərək qəbizlik yaradır.

Qəbizliyə qarşı isə ən yaxşı vasitə kəcəvər və ya kətan toxumu içməkdir.

Bütün oynaq xəstəliklərinə duzlaşma deyirlər. Halbuki duzlaşma adlı termin yoxdur, bu, osteofitlərin olmasıdır. Bu zaman itburnu, qızılçətir və mərcangilə bitkiləri qığırdağın funksiyasına yaxşı təsir edir.

# Kameraların mobil versiyası hazırlanacaq

Mühafizə məqsədilə meşələrə quraşdırılan kameralar 24 saat fəaliyyət göstərir. Kameralar həmin ərazilərin mühafizəsi üçün böyük əhəmiyyətə malikdir.

Mühafizəni gücləndirmək, həm də baş verə biləcək yanğınların qarşısını almaq məqsədilə quraşdırılan kameraların imkanları böyükdür və 2 kilometrə yaxın ərazini əhatə edə bilir.

Yaxın vaxtlarda kameraların ictimaiyyət tərəfindən istifadə ediləbiləcək yeni mobil versiyası da hazırlanacaq. Vətəndaşlar mobil telefonları vasitəsilə həmin ərazilərdəki prosesləri izləyə biləcəklər və bu sahəyə ictimai nəzarət daha da gücləndiriləcək.

**“Qəbələ”**

# Od çərşənbəsi

Boz ayda qeyd edilən ikinci çərşənbə - Od çərşənbəsidir.

İlin axır çərşənbələrindən ikincisi xalq arasında Xəbərçi çərşənbə, Üskü çərşənbə, Addı çərşənbə kimi tanınan Od çərşənbəsidir.



Bu çərşənbə qədim insanların Günəşə, oda olan inamından irəli gəlir. Adət-ənənəyə görə, bu gün tonqal qalayıb, alovun üzərindən tullanmaqla daxildə olan bütün çirkabı və azar-bezarları yandırırlar.

# Marsda yüzlərlə yeraltı təkan qeydə alınıb

“InSight” eniş platformasının cihazları Mars planetində yüzlərlə yeraltı təkan qeydə alıb, qırmızı planetin süxurlarında gözlənilməz güclü maqnitləşmənin izini tapıb.

TASS informasiya agentliyi xəbər verir ki, “InSight” modulu Marsın səthinə 2018-ci ilin dekabrında enib. Onun əsas vəzifələri Marsdakı zəlzələlərin izini axtarmaq və qırmızı planetin daxili strukturunu öyrənməkdir. O, birinci yarımildə 174 zəl-



zələ qeydə alıb. Planetoloqların sözlərinə görə, bu təkanların əksəriyyəti, kifayət qədər zəif olub. Yerdə qalan 24-ü 20-30 kilometr dərinlikdə yerləşib və təxminən 3-4 bal gücündə olub. Əgər episentrin ətrafında insanlar yaşasaydı, bu təkanları hiss edə bilərdirlər.

Marsın geologiyası ilə bağlı digər maraqlı fakt isə modulun cihazlarının planetin qabığında qalıq maqnitləşmənin yüksək səviyyəsini qeydə almasıdır ki, bu da qırmızı planetdə güclü maqnit qütbünün olmaması haqqında təsəvvürlə bir araya sığmır.

# Bilirsinizmi?

- İtlər xərçəngi və qanda şəkərin tərkibini hiss edə bilirlər.
- Helikoprin adlı köpək balığının 270 milyon il öncə yaşadığı düşünülür. Onu qəribə edən özəlliyi isə mişar dişli dairəvi çənəsi olub.
- Göllərinin sayı ən çox olan ölkə Kanadadır. Dünya göllərinin 60%-i Kanada ərazisindədir. Kanadada ölkənin 9%-ni tutan 3 000 000-dan çox göl vardır.
- Dünyada ən çox koka-kolanı İslandiya əhalisi içir
- Dünyanın heç bir dilində dizin arxa hissəsinin adını verən bir söz yoxdur.
- Normal insanın yuxuya getməsi üçün orta hesabla 7 dəqiqə vaxt tələb olunur.
- Qarışqalar məcbur qaldıqlarında 2 həftə ərzində suyun altında yaşaya bilirlər.
- Oksigensiz 5-10 dəqiqə qalmaq olar. Bundan sonra beyin hüceyrələri məhv olmağa başlayır.
- Bir addım atmaq üçün 200 əzələ işləməlidir.
- İnsan sümüyü poladdan möhkəmdir. Belə möhkəmliyə baxmayaraq sümüklərin 31 faizi sudan ibarətdir.

# Fobos tədqiq olunacaq

Yaponiyanın Kosmik Məkanın Tədqiqi Agentliyi (JAXA) Marsın peyki Fobosu tədqiq edəcəyi barədə planlarını açıqlayıb.

AZƏRTAC xəbər verir ki, JAXA-nın Marsın peykinə göndərəcəyi kosmik zond Fobosdan götürəcəyi süxur nümunələrini Yerə çatdıracaq. Bildirilir ki, bununla əlaqədar plan Yaponiya Təhsil, Mədəniyyət, İdman, Elm və Texnika Nazirliyinin mütəxəssisləri tərəfindən bəyənilib.

Məlumat üçün qeyd edək ki, marsın Fobos və Deymos adlı iki peyki var. Tədqiqat məqsədilə zondun Fobosa 2024-cü ildə göndərilməsi və onun götürəcəyi süxur nümunələrinin 2029-cu ildə Yerə çatdırılması nəzərdə tutulur. Bu, ilk belə missiya olacaq.

Alimlər bu tədqiqatla Marsın peyklərinin yaranmasına və Günəş sisteminin planetlərinin formalaşmasına aydınlıq gətiriləcəyinə ümid edirlər.

«QƏBƏLƏ» qəzetinin reklam xidməti
205-19-14, 205-15-56

# İtmişdir

Qəbələ Rayon Aqrar İslahat Komissiyasının 26 aprel 2002-ci il tarixli 03 saylı qərarı ilə Zarağan kənd sakini **Vahabov Mayis Əmiraslan oğluna və ailə üzvlərinə** verilmiş JN seriyalı 329 nömrəli (kod 40608018) **torpağa mülkiyyət hüququna dair dövlət aktı** itdiyi üçün etibarsız sayılır.

Qəbələ Rayon Aqrar İslahat Komissiyasının 28 oktyabr 1998-ci il tarixli 19 saylı qərarı ilə Vəndam qəsəbə (əvvəlki kənd) sakini **Qarayev Qamət İslam oğluna və ailə üzvlərinə** verilmiş JN seriyalı 1668 nömrəli (kod 40600048) **torpağa mülkiyyət hüququna dair dövlət aktı** itdiyi üçün etibarsız sayılır.

Qəbələ Rayon İslahat Komissiyasının 26 may 1998-ci il tarixli 10 nömrəli qərarı ilə Həzrə kənd sakini **Məmmədova Nahidə Əziz qızına və ailə üzvlərinə** verilmiş JN seriyalı 0076 nömrəli (kod 40603028) **torpağa mülkiyyət hüququna dair dövlət aktı** itdiyi üçün etibarsız sayılır.

Qəbələ Rayon Aqrar İslahat Komissiyasının 15 may 1998-ci il tarixli 09 nömrəli qərarı ilə Mirzəbəyli kənd sakini **Feyzullayev Şaiq Əsəd oğluna və ailə üzvlərinə** verilmiş JN seriyalı 161 nömrəli (kod 40613018) **torpağa mülkiyyət hüququna dair dövlət aktı** itdiyi üçün etibarsız sayılır.

Qəbələ Rayon Aqrar İslahat Komissiyasınınn 28 oktyabr 1998-ci il tarixli 19 saylı qərarı ilə Vəndam qəsəbə (əvvəlki kənd) sakini **Paşayev Nizami İsbat oğluna və ailə üzvlərinə** veilmiş JN seriyalı 1704 nömrəli (kod 40600048) **torpağa mülkiyyət hüququna dair dövlət aktı** itdiyi üçün etibarsız sayılır.

Azərbaycan Respublikası ƏMDK yanında DƏDRX-nin Ərazi İdarəsi tərəfindən **Cəfərli Camal Ehtibar oğluna** verilmiş 17 avqust 2017-ci il tarixli RX seriyalı 1121407 nömrəli (qeydiyyat nömrəsi 1917005211, reyestr nömrəsi 406013064164) **hüquqların dövlət qeydiyyatı haqqında daşınmaz əmlakın dövlət reyestrindən çıxarış** itdiyi üçün etibarsız sayılır.

Qəbələ Rayon Dövlət Notariat Kontorunun 05 mart 2006-cı il tarixli 4 ə-984 saylı alqı-satqı müqaviləsi ilə Aydınqışlaq kənd sakini **Nəbiyev Qəzənfər Abduhəlim oğluna və ailə üzvlərinə** verilmiş JN seriyalı 665 nömrəli (kod 40608038) **torpağa mülkiyyət hüququna dair dövlət aktı** itdiyi üçün etibarsız sayılır.

Qəbələ Rayon Aqrar İslahat Komissiyasının 15 may 1998-ci il tarixli 09 nömrəli qərarı ilə Mirzəbəyli kənd sakini **Cəfərova Fəzilə Budaq qızına və ailə üzvlərinə** verilmiş JN seriyalı 154 nömrəli (kod 40613018) **torpağa mülkiyyət hüququna dair dövlət aktı** itdiyi üçün etibarsız sayılır.

Qəbələ Rayon Aqrar İslahat Komissiyasının 15 may 1998-ci il tarixli 09 nömrəli qərarı ilə Mirzəbəyli kənd sakini **Cəfərov Bəhman Mənsur oğluna** verilmiş JN seriyalı 155

Redaktor
Varis Yaqubov.

TƏSİSÇİLƏR:
Qəbələ Rayon İcra Hakimiyyəti və redaksiyanın jurnalist kollektivi.
Redaksiya ilə müəllifin mövqeyi fərqli ola bilər
Məsul katib
Qüdrət Səmədov.

ÜNVANIMIZ:
AZ 3600, Qəbələ şəhəri, Heydər Əliyev prospekti, 226.
Redaktor: (024) 205-19-14.
Ümumi: (024) 205-15-56.
e-mail: news@qebele-ih.gov.az
Elanların və reklamların mətnlərinə görə redaksiya məsuliyyət daşımır.

Azərbaycan Respublikası Mətbuat və İnformasiya Nazirliyində qeyddən keçmişdir.
Lisenziya AV № 022611
«Kapitalbank»ın Qəbələ filialında hesab № Az36AİİB 33080019444900218149
VÖEN: 4400103601

«Qəbələ» qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş və Bakı şəhərində «Son dəqiqə» MMC-nin mətbəəsində ofset üsulu ilə çap edilmişdir.
Dizayner Rais Rəşidov
Oxucu məktublarına cavab verilmir və əlyazmaları geri qaytarılmır.
Tiraj 1160